*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3*
*Səhifə: 5-12*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.5*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Azərbaycan Füzulişünaslığının inkişaf meyilləri

**İsa Həbibbəyli**
Akademik
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya.** Məqalədə türk-müsəlman dünyasında romantik lirikanın ən görkəmli yaradıcılarından biri kimi şöhrət qazanan, Azərbaycan ədəbiyyatının böyük klassik sənətkarı Məhəmməd Füzulinin həyat və yaracılığından bəhs olunur. Məhəmməd Füzuli lirikanın zirvəsini fəth etmiş böyük söz ustadıdır. Onun adı Şərqin və ümumiyyətlə, dünya ədəbiyyatının ən qüdrətli sənətkarları ilə bir sırada çəkilməkdə davam edir.

Məhəmməd Füzuli türk-müsəlman dünyasının ən böyük sənət zirvələrini fəth etmiş qüdrətli sənətkarlarından biridir. Əsərlərindən aydın surətdə görünür ki, görkəmli söz sərkərdəsi, böyük qəlb ustası Məhəmməd Füzuli, hər şeydən əvvəl, Aşiqanə baxışlara malik qüdrətli sənətkardır. Məhəmməd Füzuli böyük istedadı ilə çox geniş məna daşıyan Aşiqanəlik fəlsəfəsinin yaradıcısıdır. Füzuli Azərbaycan şeirinin Nizami Gəncəvidən sonrakı bütün dövrlərinin ən yüksək zirvəsidir. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin poetik nəfəsi müqəddəs Kərbəla qapısından keçərək, insanlığı yenidən aşiqliyə, aqilliyə, müdrikliyə, kamilliyə, ədalətə çağırmaqda davam edir.

**Açar sözlər:** Məhəmməd Füzuli, Azərbaycan ədəbiyyatı, lirika, ədəbi irs, zəngin yaradıcılıq

**Məqalə tarixçəsi:** göndərilib – 11.12.2024; qəbul edilib – 20.12.2024

# Development tendencies in Fuzuli Studies of Azerbaijan

**Isa Habibbeyli**
Academician
The President of the Azerbaijan National Academy of Sciences
E-mail: isa.habibbeyli@science.az

**Abstract**. In the article is dealt with the life and creativity of Mahammad Fuzuli, great classical master of Azerbaijani literature and one of the most important creators of romantic lyrics in the Turkish-Muslim world. As we know it, Mahammad Fuzuli is a great master of words who has reached the peak of lyric poetry. His name is mentioned among the most powerful masters of Eastern and world literature.

Mahammad Fuzuli is one of the great master who has conquered the greatest art peak of the Turkish-Muslim world. It is clearly understood from his works that Mahammad Fuzuli, the supreme warlord of words and the great master of hearts, is a powerful master with amorous glances. Mahammad Fuzuli is the creator of the Love philosophy, which had a further meaning due to his great talent.

Fuzuli is the highest peak of all periods of Azerbaijani poetry after Nizami Ganjavi. The poetic

breath of the great Azerbaijani poet Mahammad Fuzuli passes through the sacred gate of Karbala and continues to call humanity to love, wisdom, perfection and justice.

**Keywords:** Mahammad Fuzuli, Azerbaijani literature, lyric poetry, literary heritage, rich creativity

**Article history:** received – 11.12.2024; accepted – 20.12.2024

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatının böyük klassik sənətkarı Məhəmməd Füzuli türk-müsəlman dünyasında romantik lirikanın ən görkəmli yaradıcılarından biri kimi şöhrət qazanmışdır. Dahi Nizami Gəncəvi epik ədəbiyyatın qüdrətli yaradıcısı olduğu kimi, Məhəmməd Füzuli də lirikanın zirvəsini fəth etmiş böyük söz ustadıdır. Onun adı Şərqin və ümumiyyətlə, dünya ədəbiyyatının ən qüdrətli sənətkarları ilə bir sırada çəkilməkdə davam edir. Məhəmməd Füzuli Şərq ədəbiyyatında xüsusi mövqeyə malik olan lirikanı daha da inkişaf etdirərək yeni bir mərhələyə çatdırmışdır.

## Əsas hissə / *Main part*

Məhəmməd Füzulinin (1494-1556) İraqın Kərbəlada anadan olduğu qeyd edilsə də, şairin mənşəyi Azərbaycanla bağlıdır. Məhəmməd Füzulinin ata nəsli Azərbaycandan İraqa köçərək orada məskunlaşmışdır. XX əsrin 50-ci illərində ədəbiyyatşünas Şamil Cəmşidovun Ağcabədi rayonunun Boyat kəndi sakinlərindən topladığı rəvayət bir daha Məhəmməd Füzulinin ata-baba nəslinin Azərbaycandan olduğunu göstərir. Həmin rəvayətdə deyilir: "Ata-babalarımızdan eşitdiyimizə görə, Süleyman kişi (Məhəmməd Füzulinin atası – *İ.H.*) bizim Boyat kəndindən imiş. Onun ata-babası bura Örənqala şəhərindən gəlmiş imiş. Süleyman kişinin burada – Kərpicli təpədə evi var imiş. O vaxt burada Hindistandan gəlmiş bir hindli mühəndis Boyat kəndinin yanından keçən və Qarqar çayının bir qolu olan Qaraqovudan bir arx ayıraraq, Boyatın Cənub-Şərqindəki düzə su çıxarmışdır. Camaat o arxın qabağında əkin əkib, bağ salmışdır. Sonra arxın üstündə bir kənd əmələ gəlir ki, onu həmin hindli mühəndisin adı ilə "Hindarx" adlandırırlar. O hindli mühəndis Süleyman kişinin qızı ilə evlənmiş, bir az bundan keçmiş ölkədə qarışıqlıq qopur. Süleyman kişi ilə qonşular arasında böyük qanlılıq düşür. Buna görə də Süleyman kişi öz yeznəsi hindli mühəndisin bələdçiliyi ilə köçüb ölkədən çıxmış və Kərbəlaya getmişdir. Biz tərəflərdən Qarabağdan – Ağdamdan Kərbəlaya vaxtilə köçüb gedən çox adamlar olmuşdur. Nikolay vaxtında Kərbəlaya ziyarətə gedən adamlar oradakı yerliləri – qohumları ilə görüşür, qonaq qalırmışlar. Babalarımızın dediyinə görə, Süleyman kişi buradan köçəndə Füzuli təzəcə anadan olubmuş. Sonralar Süleyman kişi və oğlu Məhəmməd öz qohumlarını görmək üçün Boyata gedib-gələrmişlər. Onların qohumları Boyat kəndi ilə bitişik olan Beyləqanlı-Aşıqvəlilər təpəsindənmiş. Süleyman kişinin yurd yeri adlanan "Kərpicli təpə" də buradadır [2, s.334-335].

Fikrimizcə, yuxarıdakı xatirə-rəvayətdəki Məhəmməd Füzulinin Azərbaycanda anadan olması faktı mübahisəli görünsə də, diqqəti cəlb edən məsələdir. Çünki, məlum olduğu kimi, həm Azərbaycan, həm də Türkiyə və İraq ədəbiyyatşünasları şairin doğum yeri haqqında müxtəlif fikirlər irəli sürmüş, onun Bağdadda, Hillədə, Kərkükdə, Kərbəlada anadan olmasına dair fərqli mülahizələrlə çıxış etmişlər. Bu baxımdan, bəlkə də, Məhəmməd Süleyman oğlu Füzulinin Ağcəbədi rayonunun Boyat kəndində doğulması haqqındakı rəvayət də şairin anadan olduğu yer haqqındakı versiyalardan biri kimi ehtimal edilə bilər.

Bununla belə, Məhəmməd Füzulinin Azərbaycandan İraqa köçmüş ailələrdən olduğunu başqa faktlar da təsdiq edir. Məhəmməd Füzulinin əsərlərinin dili də orta əsrlər Azərbaycan ədəbi dili ilə





tam olaraq səsləşir. Bundan başqa, Məhəmməd Füzulinin əsərlərində qürbət notları və qəriblik cizgiləri də hiss olunmaqdadır.

Məlum olduğu kimi, Məhəmməd Füzuli İraqda yaşamış, orada mədrəsə təhsili almış, ərəb-fars dillərini öyrənmişdir. O, Kərbəlada İmam Hüseyn məqbərə-ziyarətgahında çalışmışdır. Ehtimala görə, Şah İsmayıl Xətayi ilə Kərbəla ziyarəti zamanı görüşmüşdür. Təbrizə, İstanbula və Hindistana getmək arzusunda olmuşdur. Həyatının sonlarında maddi cəhətdən ehtiyac içində yaşamışdır. Osmanlı Sultanlarına kömək üçün müraciət etmək məcburiyyətində qalmış, lakin məqsədinə nail ola bilməmişdir. Böyük ehtimal ki, Məhəmməd Füzulinin Osmanlı dövləti ilə davada olan Səfəvi hökmdarı Şah İsmayıl Xətayiyə rəğbəti, "Bəngü Badə" əsərini ona həsr etməsi haqqında məlumatlı olan dövlət rəsmiləri şairin bu arzusunu yerinə yetirməklə tərəddüd etmişlər.

Məhəmməd Füzuli türk-müsəlman dünyasının ən böyük sənət zirvələrini fəth etmiş qüdrətli sənətkarlarından biridir. Əsərlərindən aydın surətdə görünür ki, görkəmli söz sərkərdəsi, böyük qəlb ustası Məhəmməd Füzuli, hər şeydən əvvəl, Aşiqanə baxışlara malik qüdrətli sənətkardır. O, özünü qürur hissi ilə sözün əsl mənasında "aşiqi-sadiq" hesab edir. Ustad şairin fikrincə, onun aşiqanə düşüncəsi ilə müqayisədə hətta ideal məhəbbət simvolu olan Məcnun da müəyyən mənada kölgədə qalır:

*Məndə Məcnundan füzun aşiqlik istedadı var,*
*Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.*

Elmi fikirdə etiraf olunduğu kimi, "eşq Füzuli yaradıcılığının əsas qayəsi, onun ana xəttini təşkil edən mərkəzi məsələlərdəndir" [4, s.129]. Ona görə də Füzuli eşqinin xarakterini, Füzuli məhəbbətinin fəlsəfəsini aydınlaşdırmadan, bu dahi şairi düzgün başa düşmək və dəyərləndirib doğru elmi nəticələr çıxarmaq mümkün deyildir.

Bu baxımdan yanaşdıqda dünyaya aşiqanə gözlə baxan Füzuli Məcnundan daha ucada, yüksəkdə dayanır. Çünki aşiqlik – Məcnunluq, aşiqanəlik isə Füzuli olmaq deməkdir. Məcnun Leylaya aşiqdir. Füzuli isə Leylaların və məcnunluğun, insanın və təbiətin, xalqın və millətin aşiqidir. Füzulinin eşqi Məcnundan fərqli olaraq, zamana sığmayan, bütün zamanların eşqidir, əbədi sevda düşüncəsidir.

Məhəmməd Füzuli şeirində aşiqlik – sevmək, Aşiqanəlik isə anlamaq, düşünmək, müdriklik mənasındadır. Füzuli yaradıcılığında anlamağın mayası düşüncə və kədərdən ibarətdir. Füzulinin aşiqanə mahiyyəti eşqdən və həsrətdən yoğrulmuşdur. Anlamaq isə böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə demişkən, dərdsiz, kədərsiz mümkün deyildir. Cəlil Məmmədquluzadənin bəyan etdiyi "anlamaq dərdi" anlayışı bəşəriyyətin və böyük ədəbiyyatın əbədi yol yoldaşıdır. Aşiqanə Füzuli üçün də "anlamaq dərdi" onun sevda fəlsəfəsinin mahiyyətini müəyyən edir. Bu mənada dahi Azərbaycan şairi Məhəmməd Füzulinin özünə həmdərd axtarması təkcə kədərini bölüşmək məqsədi daşımır. Qərib şairin həmdərd axtarışı əqidə dostu, həmməslək Aşiq, fikir, düşüncə ortağı tapmağa can atmaq deməkdir. Yalnız müdrik, insanpərvər, ədalətli Aşiqlərin birliyi sayəsində təkcə Məcnunu yox, bütövlükdə Məcnunluğu – insanlığı dərddən və şərdən xilas etmək mümkündür.

Məhəmməd Füzuli sənətində eşq aşiqin mənəvi pasportu, kədər isə onun ictimai mahiyyəti və məzmunudur. Məhəmməd Füzuli böyük sələfi Nizami Gəncəvi kimi, eşqi "uca göylərin mehrabı" hesab etməmişdir. Dahi şairin təsəvvüründə "məşhuri-cahan" olan eşq daha çox həyati məzmun daşıyır. Vaxtilə görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayev də Məhəmməd Füzuli lirikasında, hətta "Leyli və Məcnun" poemasında tərənnüm olunan eşqin real və insani mahiyyət daşıdığını qeyd etmişdir: "Füzulinin eşqi, əsasən, real, maddi və həyati eşqdir. …Füzulinin eşqi əsirlik bilməyən, dini ehkam və adətlər çərçivəsinə sığmayan, ancaq yüksək mənəviyyatlı bir insanın daxili ehtiyac və mənəvi tələblərindən doğan odlu, azad, qanadlı bir eşqdir" [6, s.55-56].

*Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,*
*Eşqi afəti-can olduğu məşhuri-cahandır.*
*...Eşq içrə əzab olduğun ondan bilərəm ki,*
*Hər kimsə ki, aşiqdir, işi ahü fəğandır.*

Məlum həqiqətdir ki, aşiq Məcnunu Aşiqanə Füzuli yaratmışdır. Aşiq və məşuq Leyli və Məcnun üçün müqabil qarşı tərəflər – İbn Səlam və onun tərəfdarlarından, yəni konkret şəxslərdən ibarətdir. Məhəmməd Füzuli üçün isə əks tərəf sadəcə, ayrı-ayrı şəxslərdən, tayfalar və qəbilələrdən ibarət deyildir. Bütövlükdə "bisükun dövran" aşiqanə Füzulinin, yaxud Füzuli Aşiqinin tərəf-müqabilidir. Məcnun digər bir ərəb qəbiləsi ilə, Füzuli isə "torpağı qan içən" zəmanə ilə savaşdadır.

Məhəmməd Füzuli böyük istedadı ilə çox geniş məna daşıyan Aşiqanəlik fəlsəfəsinin yaradıcısıdır. Bu məqamda Füzulinin ictimai düşüncəsi ilə eşqi, kədəri ilə sevgisi arasında bərabərlik işarəsi yaranır. Azərbaycan ədəbiyyatşünaslığında etiraf olunduğu kimi, "Aşiq Füzuli ilə mütəfəkkir Füzuli ancaq vəhdət halında alındığı zaman onu duymaq olur. Füzuli başqa cür dərk edilə bilməz" [1, s.41]. Məhəmməd Füzuli özü də bütün fikirlərini, sevgisini, həyat fəlsəfəsini, ictimai görüşlərini "həmişə Aşiqanə" sözlərlə ifadə etdiyini bəyan edərək yazmışdır:

*Məndən, Füzuli, istəmə əşari-mədhü zəm,*
*Mən aşiqəm, həmişə sözüm aşiqanədir.*

Tarixdən məlum olduğu kimi, hökmdarların, sərkərdələrin hər birinin özlərinə aid fəaliyyət dövrləri vardır. Aşiqlik və aşiqanəlik isə zaman və məkan məhdudiyyəti tanımır. Doğrudur, hər dövrün öz aşiqi və aşiqanə sevdası, yaxud Aşiq-qəhrəmanı olur. Lakin onların biri digərinin həyatını, taleyini davam etdirərək əbədi məhəbbət dastanına çevirir. Məhəmməd Füzuli də bu fikirdədir ki:

*Sürdü Məcnun növbətin, indi mənəm rüsvayi-eşq,*
*Doğru derlər: hər zaman bir aşiqin dövranıdır.*

Bu mənada bəşəriyyət 500 ildən artıqdır ki, "bir aşiqin dövranını", yəni Füzuli sevdası dövranını heyranlıqla seyr edir, yaşayır və mənəviyyatca zənginləşir, kamilləşir və yetkinləşir. Bu baxımdan Məhəmməd Füzulinin aşiqanə qəzəllərini Vilyam Şekspirin sonetlərinə bərabər tutmaq olar. Şekspir kimi, Aşiqin, aşiqliyin, aşiqanəliyin, Füzulinin də dövranı və idealları davamlı və əbədidir. İnsanlığın həmişə Aşiqə, aşiqanəliyə, yəni Füzuli sənətinə ehtiyacı vardır. Bəşəriyyətin xilası, mənəvi cəhətdən saflaşması və kamilləşməsi Aşiq Füzulinin aşiqanə sənət dünyasından keçir.

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatında alleqorik janrın yaradıcısıdır. Füzuliyə qədər kiçikhəcmli təmsil kimi mövcud olan bu janr Füzulinin sayəsində böyük həcmə malik olan alleqorik poema səviyyəsinə qaldırılmışdır. Məhəmməd Füzulinin alleqorik əsərləri onun yaradıcılığındakı məcnunvari Aşiqin ictimai məzmuna malik olan mütəfəkkirlik dərsləridir. Lirikasında Məcnun kimi çıxış edən Füzuli alleqorik əsərlərində mütəfəkkir Məhəmməd Füzulidir.

"Şikayətnamə" – Məhəmməd Füzulinin dövrandan şikayət məktubudur. "Şikayətnamə" – Azərbaycan ədəbiyyatında "Leyli və Məcnun" dövrünün başa çatmasının, realist ədəbiyyat dövranının başlanmasının elanıdır. "Şikayətnamə" – Azərbaycan romantik ədəbiyyatının "Məni candan usandırdı"sıdır. Poeziyasında məhəbbət Aşiqi olan Füzuli "Şikayətnamə"sində həyat və həqiqət Aşiqidir. Məhəmməd Füzuli sənəti – Məcnunun şikayəti, Leylinin həqiqətidir.

Müasirləri olan tanınmış təzkirəçilərdən tutmuş davamçılarına və tədqiqatçılarına qədər hər kəs Füzuli eşqinin və sənətinin əbədiyyətindən bəhs etmişdir. Hətta ədəbiyyatda tamamilə əks





qütbün, yəni romantik ədəbiyyatın deyil, realist ədəbi fikrin görkəmli yaradıcıları da Məhəmməd Füzuli sənətindəki ölməzliyi və müasirliyi etiraf etmiş və yüksək qiymətləndirmişlər. Cəlil Məmmədquluzadənin 1925-ci ildə "Molla Nəsrəddin" jurnalında ifadə etdiyi aşağıdakı sözlərin əlavə izahata ehtiyacı yoxdur: "Rəhmətlik Füzuli "Molla Nəsrəddin"in birinci nömrəsindən başlayıb, bu günə qədər məcmuəmizdə iştirak etmiş və şeirlər yazmışdır... İnanmırsınız, götürünüz "Molla Nəsrəddin" məcmuəsinin 20 illiyini, tökünüz qabağınıza. Hansı şeirə baxsanız, görərsiniz ki, onda Füzulidən bir duz vardır... Onun məktəbi-əbədisi bizim şairlərin başına girib, bütün əsərlərində Füzuli ruhu görünməkdədir.

..."Molla Nəsrəddin" sözünü qurtarıb deyir ki, Füzuli diridir. Füzuli şeir dövrünün hazırladığı yeniliyə məğlub olmaz və sarsılmaz bir qüvvədir" [5].

Məhəmməd Füzuli türk-müsəlman dünyasının şeir abidəsidir.

Füzuli Azərbaycan şeirinin Nizami Gəncəvidən sonrakı bütün dövrlərinin ən yüksək zirvəsidir.

Məhəmməd Füzuli Azərbaycan klassik romantik şeirinin ustadı, realist tipli ədəbiyyatın nazimidir, yəni həyatın gerçəklərini əks etdirməkdə təbii olaraq heç də romantik baxışları ilə eyni yüksəklikdə ola bilmir. Hətta onun "Şikayətnamə" kimi mövzusuna görə realist ədəbiyyata yaxın olan nəsr əsəri də romantik bədii nəsr nümunəsidir. Mirzə Fətəli Axundzadənin "Nazimi-ustad" ifadəsinin nəzəri mənası, açılışı bundan ibarətdir.

Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası Məhəmməd Füzulinin "Leyli və Məcnun"u səviyyəsində böyük sənət şedevridir. Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasını yaratmaqla Məhəmməd Füzulinin "Leyli və Məcnun"una yeni həyat qazandırmışdır. "Leyli və Məcnun" operası dahi Üzeyir Hacıbəylinin XX əsrin yenitipli bənzərsiz Məhəmməd Füzulisi olduğunu nümayiş etdirir.

Xalq şairi Məmməd Arazın aşağıdakı şeirində cəmiyyətin Məhəmməd Füzuli sənətindəki insanlıq ideallarına əbədi ehtiyacı olması fikri böyük istedadla ifadə olunmuşdur:

*Könlümdə bir nağmə dil açdı yenə,*
*Ay ellər, bir sevda nağməsidir o.*
*Açın qapıları səba yelinə,*
*Açın, Füzulinin nəfəsidir o.*

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin poetik nəfəsi müqəddəs Kərbəla qapısından keçərək, insanlığı yenidən aşiqliyə, aqilliyə, müdrikliyə, kamilliyə, ədalətə çağırmaqda davam edir.

Görkəmli Xalq şairi Bəxtiyar Vahabzadənin aşağıdakı misraları da Məhəmməd Füzulinin böyük və ölməz sənəti ilə əbədiyyət qazandığını obrazlı şəkildə əks etdirir:

*Ağladın, yayılar səsin hər yana,*
*Bülbül bağçalarda ötdü – dedilər.*
*Gələndə Məhəmməd gəldin cahana*
*Gedəndə: "Füzuli getdi" – dedilər.*

Görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev dahi söz ustadı Məhəmməd Füzuli sənətinə yüksək qiymət vermişdir: "Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər... Onun yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəhrəsidir... Füzuli dahi şair kimi Azərbaycanda həmişə hamının qəlbindədir. Bu da ona görədir ki, Füzuli doğrudan da azərbaycanlıdır və Azərbaycana mənsubdur... Onu dünya miqyasında geniş təbliğ edə bilsək, şübhəsiz ki, xalqımızı, onun tarixini, mədəniyyətini, mənəviyyatını bir o qədər çox tanıda, təbliğ edə biləcəyik" [3, s.204-205].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd olunması haqqında"kı 25 yanvar 2024-cü il tarixli Sərəncamı bu böyük sənətkarın həyatı və yaradıcılığının, zəngin poetik irsinin və ölməz ideallarının xalqımıza və dünyaya Azərbaycançılıq ideyaları əsasında yenidən çatdırılmasına geniş imkan yaradır.

***

Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" monoqrafiyası müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığında dahi sənətkarın tərcümeyi-halı və ədəbi irsinin araşdırılıb öyrənilməsinə yenidən qayıdışın mötəbər nümunəsidir. İlk dəfə olaraq həcm etibarilə min səhifədən çox olan "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" monoqrafiyasında böyük sənətkarın geniş elmi tərcümeyi-halı verilmiş, çoxcəhətli yaradıcılıq fəaliyyətinin bütün istiqamətləri, əsərlərinin və məktublarının, demək olar ki, hamısı əsaslı şəkildə tədqiq olunmuşdur. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Füzulişünaslıq sektoru"nun əməkdaşlarının çapa hazırlayıb nəşr etdirdikləri "Füzuli kitabxanası" seriyasından olan kitabları, böyük Azərbaycan şairinə həsr edilmiş elmi əsərlər silsiləsi "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" adlı ümumiləşdirilmiş elmi-tədqiqat əsərinin meydana çıxması üçün əhəmiyyətli elmi mənbə və bələdçi rolunu oynamışdır. Azərbaycan Füzulişünaslığının təməl kitabları olan Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli", Məmməd Cəfər Cəfərovun "Füzuli düşünür", Mir Cəlalın "Füzuli sənətkarlığı" monoqrafiyalarının "Füzulişünaslıq sektoru"nun əməkdaşları tərəfindən latın qrafikası ilə və müqəddimələrlə yenidən nəşr edilməsi yeni nəsil Füzulişünaslar üçün mühüm istinad mənbəyi rolunu oynamış, elmi cəhətdən bələdçilik funksiyasını yerinə yetirmişdir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Füzulişünaslıq sektoru"nun müdiri, filologiya elmləri doktoru Ataəmi Mirzəyevin "Füzulinin "Tərcümeyi-Hədisi-ərbəin" əsəri", həmin sektorun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Sevinc Ağayevanın "Məhəmməd Füzulinin anadilli divanının leksik tərkibi: Azərbaycan mənşəli arxaizmlər" kitabları böyük sənətkarın həyatı və yaradıcılığının konkret problemlər üzrə ilk dəfə araşdırılması vasitəsilə Məhəmməd Füzulinin zəngin yaradıcılığının tədqiqi sahəsində boş xanaların doldurulmasına xidmət edir.

Eyni zamanda, "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri, filologiya elmləri doktoru Fəridə Əzizovanın 2024-cü ildə "Şair-mütəfəkkir Məhəmməd Füzulinin fəlsəfi irsi" monoqrafiyası dahi sənətkarın bədii dühasının elmi mahiyyətini meydana qoyur. Azərbaycan mühacirət ədəbiyyatı şöbəsinin nəşr etdirdiyi Səlim Rəfiq Rəfioğlunun "Füzuli" monoqrafiyası Türkiyədə Füzulişünaslığın elmi axtarışlarını və nailiyyətlərini elmi dövriyyəyə gətirir. "Dünya ədəbiyyatı və komparativistika" şöbəsi əməkdaşlarının iştirakı ilə 2024-cü ildə oxuculara təqdim edilmiş tanınmış Polşa ədəbiyyatşünası Stanislava Plyaskovitskaya-Rımkeviçin "Məhəmməd Süleyman oğlu Füzuli" tədqiqatı Füzuli sənətinə Avropadakı elmi baxışları öyrənmək, təhlil edərək dəyərləndirməklə, dahi sənətkarın dövrü, həyatı və yaradıcılığını daha geniş miqyasda tədqiq etmək baxımından mükəmməl təcrübə mənbəyi olmuşdur. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Gürcüstan Elmlər Akademiyasının həqiqi üzvü Elizbar Cavelidzenin "Məhəmməd Füzuli" monoqrafiyasını Azərbaycan dilinə çevirərək nəşr etməklə, böyük Azərbaycan şairi Məhəmməd Füzuliyə Qafqaz zirvəsindən baxışı da meydana qoymuşdur. Beləliklə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təqdim etdiyi "Füzuli kitabxanası" seriyası Azərbaycan Füzulişünaslığının ilk elmi çoxcildlik külliyyatı kimi ölkə ictimaiyyətinin də diqqətini cəlb etmiş, böyük marağa səbəb olmuşdur. Təsadüfi deyildir ki, "Füzuli kitabxanası" seriyasının yeni nəşrləri 2024-cü ildə Bakıda keçirilən Beynəlxalq Kitab Sərgisində uğurla nümayiş etdirilmiş və Azərbaycan Mədəniyyət Nazirliyinin xüsusi Sertifikatına layiq görülmüşdür. "Füzuli kitabxanası" seriyasından olan kitablar dəstinin Türkiyədə təşkil olunan Türk Dünyası Kitab Sərgisində də yer alması Azərbaycan Füzulişünaslığının beynəlxalq elmi mühitə doğru inkişaf etdiyini göstərir. Etiraf edək ki, bütün bunlar, Məhəmməd Füzulinin 530 illiyinin Azərbaycan Füzulişünaslıq elminin inkişafında xüsusi bir inkişaf mərhələsi olduğunu nümayiş etdirir.





***

Beləliklə, elmi ictimaiyyətə təqdim edilən AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda hazırlanmış "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" kitabı Azərbaycan Füzulişünaslığının son 100 illikdəki elmi axtarışları və nailiyyətləri zəminində meydana çıxmış sanballı elmi əsərdir.

"Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" kitabı dahi sənətkarın zəngin və çoxcəhətli ədəbi irsinin Azərbaycançılıq baxımından tədqiq və təhlil edilməsi əsasında yazılmış mükəmməl elmi tədqiqat əsəridir.

Nəhayət, "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" kitabı ustad şairin həyatı və yaradıcılığının bütün sahələrini əhatə edən ümumiləşdirilmiş monoqrafik elmi tədqiqat əsəri kimi də mühüm əhəmiyyətə malikdir.

Ən nəhayət, "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" monoqrafiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun yeni nəsil Füzulişünaslarının böyük ənənələri və nailiyyətləri olan Azərbaycan Füzulişünaslıq elmi qarşısında möhtəşəm hesabatıdır.

Bütün bunlara görə, "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" monoqrafiyası müstəqillik dövrü Azərbaycan Füzulişünaslıq elminin mühüm nailiyyətidir.

Bu, Azərbaycan ədəbiyyatşünaslıq elminin ən böyük Füzulinaməsidir.

"Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" monoqrafiyası Azərbaycan Füzulişünaslıq elminin bir əsrlik inkişafının möhtəşəm yekunu və yeni tarixi epoxadakı mükəmməl başlanğıcıdır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təqdim etdiyi "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" kollektiv monoqrafiyası Füzulişünaslığın yeni mərhələsinin mühüm elmi hadisəsidir.

Bu, çoxəsrlik ədəbi-tarixi ənənəsi olan Azərbaycan Füzulişünaslıq elminin təzkirəçilikdən monoqrafik tədqiqatlara qədərki inkişafı yolunda meydana çıxan ən irihəcmli elmi əsərdir.

Bu, dünya Füzulişünaslığında da Məhəmməd Füzulinin dövrü və həyatı, bədii yaradıcılığı və fəlsəfəsi haqqında ilk tam ümumiləşdirilmiş elmi əsər kimi də qiymətlidir.

Nə dünya Füzulişünaslığı, nə də Azərbaycan Füzulişünaslıq elmi heç bir mərhələdə indiki qədər elmi kitabların çox nəşr edildiyi dövrünü yaşamamışdır. Müstəqillik dövrünün ön mövqeyə çıxardığı Azərbaycançılıq ideyası və düşüncə sərbəstliyi, dünya elmi və ədəbiyyatı ilə əlaqələrin genişlənməsi, arxivlərin açılması hazırkı tarixi mərhələdə Füzulişünaslıq tədqiqatlarının elmi yanaşma və dəyərləndirmə imkanlarının genişliyini və gerçəkliyini də meydana qoyur. Nəticədə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşr etdirdiyi kitablarla dahi Azərbaycan şairi Məhəmməd Füzuli müstəqillik dövrü Azərbaycan elminin işığında ilk növbədə mənsub olduğu xalqa və geniş mənada dünyaya bütün reallıqları ilə birlikdə yenidən təqdim olunur.

**Nəticə / *Conclusion***

İnanırıq ki, "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı" adlandırılan möhtəşəm kitab bundan sonrakı dövr üçün Azərbaycan və dünya Füzulişünaslığının mötəbər elmi mənbəsi və bələdçisi ola biləcəkdir.

Bütün bunlarla bərabər, dahi Azərbaycan şairi Məhəmməd Füzuli haqqında elmimizin ən son axtarışları və qənaətləri əsasında elmi-populyar üslubda hazırlanmış və nisbətən yığcam həcmə malik olan bir kitabın da yazılıb, xarici dillərə çevrilərək nəşr edilməsi və dünya ölkələrində yayılması da Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu əməkdaşlarının, xüsusən də İnstitutda fəaliyyətini uğurla davam etdirən "Füzulişünaslıq sektoru"nda çalışan tədqiqatçıların borcu və vəzifəsidir.

**Ədəbiyyat / *References***


1. Cəfərov, Məmməd Cəfər. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərnəşr, 1973, s.41.
2. Cəmşidov, Şamil. Məhəmməd Füzulinin ata yurdu haqqında rəvayət. Bax: Məhəmməd Füzuli (Elmi-tənqidi məqalələr). – Bakı: Azərnəşr, 1958, s.334-335.
3. Heydər Əliyev. Ədəbiyyatın böyük borcu və amalı (Tərtib edəni: V.Quliyev). – Bakı: Ozan, 1999, s.204-205.
4. Qasımzadə, Fuad. Qəm karvanı, yaxud zülmətdə nur. – Bakı: Azərnəşr, 1968, s.129.
5. Məmmədquluzadə, Cəlil. Füzuli. "Molla Nəsrəddin" jurnalı, 23 may 1925-ci il, №21.
6. Mir Cəlal. Füzuli sənətkarlığı. – Bakı: Elm, 2024, s.55-56.


## Тенденции развития азербайджанского физуливедения


**Иса Габиббейли**
Академик
Президент Национальной академии наук Азербайджана
E-mail: isa.habibbeyli@science.az



**Резюме.** В статье рассказывается о жизни и творчестве великого классика азербайджанской литературы Мухаммеда Физули, более известного как одного из самых выдающихся творцов романтической лирики в тюрко-мусульманском мире. Его имя по-прежнему упоминается наряду с именами самых могущественных мастеров Востока и мировой литературы.

Мухаммед Физули – один из величайших мастеров искусства, покоривший высшие вершины лирического искусства тюрко-мусульманского мира. По его произведениям видно, что Мухаммед Физули, гениальный деятель слова, властелин сердец, прежде всего, является воспевателем любви. Мухаммед Физули – певец любви, имеющий при его огромном таланте очень широкое значение.

После Низами Гянджеви Физули является высочайшей вершиной всех периодов азербайджанской поэзии. Поэтический дух великого азербайджанского поэта Мухаммеда Физули продолжает призывать человечество к любви, разуму, мудрости, совершенству и справедливости, проходя через ворота священной Кербелы.



**Ключевые слова**: Мухаммед Физули, азербайджанская литература, лирика, литературное наследие, богатое творчество